# “Qələm üç nəfərdən qaldırılmışdır: yuxudan oyanana qədər yatan kəsdən, həddi-büluğa çatana qədər uşaqdan və ağlı başına gələnə qədər dəlidən”

Əlidən (Allah ondan razı olsun) rəvayət edilir ki, Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) buyurdu: “Qələm üç nəfərdən qaldırılmışdır: yuxudan oyanana qədər yatan kəsdən, həddi-büluğa çatana qədər uşaqdan və ağlı başına gələnə qədər dəlidən”.
[Səhih] [Əbu Davud,Ət-Tirmizi, Ən-Nəsai Əl-Kubrada, İbnu-Məcə və Əhməd rəvayət etdi]

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) bu üç sinif istisna olmaqla, təklifin (şər'i vəzifələrin) Adəm övladı üçün vacib olduğunu bildirmişdir: Böyüyüb həddi-büluğa çatana qədər kiçik uşaqdan. Ağlı özünə qayıdana qədər ağlını itirmiş dəlidən. Yuxudan oyanana qədər yatmış kəsdən. Onlardan cavabdehlik götürülüb, onların günah etməkləri onların əleyhinə yazılmır, lakin dəli və yatmış kəsdən fərqli olaraq yaxşılıq kiçik uşaq üçün yazılar. Çünki onlar, şüurun yox olmasına görə ibadəti səhih olmayan kəslərin sırasındadırlar.

https://www.sunnah.global/hadeeth/az/show/58148